Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Neft milyonçusu, tacir və mesenat-xeyriyyəçi Musa Nağıyev**

# Neft milyonçusu, tacir və mesenat-xeyriyyəçi Musa Nağıyevin 180 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova** ***Əməkdar mədəniyyət işçisi***

**Neft milyonçusu, tacir və mesenat-xeyriyyəçi Musa Nağıyevin 180 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 28 s.**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

19-cu əsrdə Bakı şəhəri öz milyonçularının sayı etibarilə Rusiyanın şəhərləri içərisində görkəmli yerlərdən birini tuturdu. Neft bu şəhəri iri sərmayədarlar yurduna çevirmişdi. Lakin Bakı milyonçuları başqa şəhərlərin milyonçularından onunla fərqlənirdilər ki, onlar bu sərmayə və sərvəti irsi olaraq, öz ata və babalarından almamışdılar. Bir qayda olaraq, əksəriyyəti fəhləlikdən, yoxsulluqdan öz zəhmətləri ilə milyonçu dərəcəsinə yüksəlmişdilər. Əvvəllər öz zəhmətləri, kamal və səyləri onları irəli aparmış, sonralar isə güclü neft fantanları onları sərvətin yüksək dərəcəsinə qaldırmışdı. Bu gün biz Bakının bu milyonçularından biri haqda danışacağıq.

Bəli, haqqında söz açacağımız milyonçu, xeyriyyəçi Musa Nağıyevdir.

Nobel qardaşları istisna edilərsə, Bakı milyonçuları içərisində ən varlısı Musa Nağıyev idi.

Bakıda inşa olunan ən gözəl imarətlər Musa Nağıyevə məxsusdur. Xalq içərisində onun xəsisliyi barəsində çox rəvayətlər yayılmışdı. Əslində Nağıyev deyildiyi dərəcədə də xəsis deyildi. Bəzən qəpiyə xəsislik eləyirdisə, böyük kapital qoyuluşunda başqa milyonçulardan, hətta Tağıyevdən də geri qalmırdı. Məsələn, 28 May küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera binasının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, İstiqlaliyyət küçəsindəki məktəbin üçüncü mərtəbəsi, Krasnovodsk (indiki Səməd Vurğun) küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları və sair bu kimi şəhərin gözə gəlimli binaları Musa Nağıyevin pulu ilə tikilmişdir. Nəhayət, şəhər memarlığının tacı hesab edilən məşhur "İsmailiyyə"

binası. Musa Nağıyev bunları bizə miras qoyub getmişdir. Kimsə nə vaxtsa ona demişdi ki, ucaldılan hər bina sahibinin ömrünü bir az da uzadır. Həmçinin 1913-cü ildə tikilmiş Musa Nağıyev adına xəstəxana da bunlara misaldır. Həmin ildə Bakıda xəstəxanaya böyük ehtiyac duyan Musa Nağıyev şəhər dumasına müraciət edərək, bildirmişdi ki, öz pulu hesabına 225 çarpayılıq xəstəxana tikdirmək fikrindədir və indidən onun xərcini şəhər kasasına verməyə hazırdır. Ancaq bir şərtlə ki, xəstəxana gərək üç ilə hazır olsun. Bundan əlavə xəstəxanada müsəlmanlar üçün 50 çarpayılıq ayrıca bir şöbə olmalıdır.

Bəli, elə bu gördüyü xeyirxah işlərə görə də Bakı qəzetlərindən biri yazırdı ki, Ağa Musa Nağıyev müsəlman xeyirxahlarından ən səxavətlisidir. Hətta Bakıda və başqa şəhərlərdəki xeyriyyə cəmiyyətlərinin iri ianə xəzinəsinə üs-üstə yarım milyona qədər pul daxil etmişdir.

Əziz oxucu! Hazırladığımız vəsait iki hissədən ibarətdir. Vəsaitdə Musa Nağıyevin həyatı və gördüyü xeyirxah işlərdən söz açılır. Ümid edirik ki, vəsait kitabxanaçılar üçün istifadə oluna biləcək bir vəsaitdir.

## Bölmə I
## Həyat və yaradıcılığı

Neft miyonçusu, birinci dərəcəli tacir, mesenat-xeyriyyəçi Musa Nağıyev...Bu ad bizlərin yaddaşında gələcək nəslə nə az, nə çox 98 möhtəşəm bina yadigar qoyan miyonçu kimi qalıb. O binalar ki, Bakının arxitekturasına xüsusi gözəllik verməklə yanaşı, paytaxtın kübar irslərini büsbütün təsdiqləyir. Elə Musa Nağıyevin başqa milyonçulardan fərqli cəhəti də köhnə Bakının memarlıq simasına ən çox töhvə verməsidir.

Ağamusa Nağıyev avropalaşmaq niyyətində olanları "Qərbi Azərbaycana gətirəcəyəm" deyirdi. Lakin bu binalar gözəlliyi, möhtəşəmliyi, nadir üslubu xatırlamaqla yanaşı, kədərli duyğuları da özündə yaşadır. Bu duyğular isə həmin binaların sahibinin acınacaqlı taleyidir. Ömrünün 70-ci baharında dünyasını dəyişən milyonçunun aqibəti digər milyonçu-xeyriyyəçilər kimi çox faciəvi olub. Belə ki, Azərbaycanda kommunist rejiminin qurulması neft baronlarını taleyin sərt üzu ilə üz-üzə qoydu. Səfalət içində dünyasını dəyişənlər, düşdüyü vəziyyətə dözməyib intihar edənlər və dərddən dünyasını dəyişənlər oldu. 20-ci illərdə bolşeviklərin Azərbaycanda hakimiyyətə gəlməsi ilə Bakı milyonçularının taleyinə və karyeralarına birdəfəlik xitam verildi.

Ağamusa Nağıyev 1842-cu ildə Bakının Biləcəri kəndində olduqca kasıb ailədə doğulub. Samançı oğlu Musa 11 yaşından hamballıq edib. 18 yaşına kimi əlinin qabarı, ayaqlarının döyənəkləri hesabına qazandığı pulu qəpik-qəpik toplayaraq kiçik torpaq alıb. Özünün kiçik təsərrüfatını yaratmaq və kasıbçılıqdan can qurtarmaq, ucalmaq arzulayır və bunun öhdəsindən gəlir. Bir vaxt samançı oğlu olub, hamballıq edən məşhur maqnat "Qənaət milyonçu olmağın yoludur" deyirdi. Onun imzası-venzeli xeyriyyəçilik modeli olaraq bunların üzərində qalmaqdadır. Milyonçunun tikdirdiyi binalar illər yola salıb. Binaların, əlalxüsus 28 May küçəsini bəzəyən

tikililərin hər ornamentində xüsusi ştrix var. Tikililərin üzərindəki venzel  öz gözəlliyi və məna etibarı ilə diqqəti cəlb edir. Kənarlarında saman çələngi, ortada hambal şələsi və üzərində MN və yaxud AM təsvir olunan yazının önündən həyacansız keçmək olmur. Milyonçu bununla keçmişini unutmadığını vurğulayıb. Bu yerdə onu da vurğulayaq ki, M.Nağıyevin var-dövləti heç də Hacı Zeynalabdin Tağıyevdən geri qalmayıb. Təsadüfi deyil ki, çar II Nikolay Nağıyevi onu 11 milyonçudan birincisi adlandırıb, ona “Neft kralı” titulunu verib. Ağamusanın fəaliyyəti təkcə binaların tikdirilməsi ilə məhdudlaşmırdı. Bakıya çəkilən su kəmərinə xeyli vəsait sərf edən, Realnı məktəbin və şəhər kənarında 4 xəstəxananın tikilməsini müəyyənləşdirən Ağamusa hər zaman xalqın taleyini düşünüb. O, sevincli-kədərli, ziddiyyətli və faciəli həyatına baxmayaraq büsbütün doğma xalqının tarixi və mədəniyyəti ilə bağlı görkəmli şəxsiyyətlərdən biri olub. Xeyirxahlığı, xeyir əməlləri, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünəməxsus şərəfli yer tutub.Musa Nağıyev vəfat etdikdən sonra pulundan istifadə etmək mümkün olmayıb. Bütün Sovet İttifaqının hakimiyyəti ərzində onun qəbri üzərində ərəb əlifbası ilə adı yazılan kiçik bir daş parçasından ibarət olub. Bundan başqa, Musa Nağıyevin cəsədi üç dəfə müxtəlif yerlərdə yenidən basdırılıb. Üç dəfə bu kiçik dördbucaqlı qəbirdaşı onun yeni qəbrinin üzərinə qoyulub. Qəbir yerlərinin dəyişdirilməsinin də müxtəlif səbəbləri olub. Belə ki, xeyriyyəçiliklərlə məşğul olan Ağamusanın Çəmbərəkənd qəbiristanlığındakı (1919-cu ildən 1931-ci ilədək) qəbri Kirov parkının salınması ilə əlaqədar Biləcəridəki “Proparka” qəbiristanlığına köçürülür.Onun Biləcəri Dağüstü qəbiristanlığındakı 2-cü qəbrinin də aqibəti bu cür olur. Beləcə, Ağamusanın nəşi 80 il Kərbəla yolu gözləməli olur. Miyonçunun nəşi yalnız 1998-ci ilin 23 iyulunda  Dilarə xanımın və xeyriyyəçi Axund Hacı Əvəzin təşəbbüsü ilə yenə Biləcəri qəbiristanlığında əbədi məzara qovuşur. Qəbrin üstü

oğlunun xatirəsinə tikdirdiyi İsmailiyyə binasının estetikası ilə tərtib edilir.

## Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycanda inqilabadək Bakının arxitekturasına fenomen binalar tikdirməklə gözəllik bəxş edənlərdən biri də Ağa Musa Nağıyev olmuşdur.

İllərin buraxdığı izlər sübut edir ki, Ağa Musanın xidmətlərinin qiymətləndirilməsinin vaxtı çoxdan çatmışdır.
Kim idi Ağa Musa? İlk neft maqnatı, milyonçu, xeyriyyəçi. Ağa Musa 1842-ci ildə, soyuq bir qış axşamında, yoxsul samançı ailəsində dünyaya göz açıb. 11 yaşından etibarən ağır zəhmətə qatlaşdı. Balaca cəfakeş ağır palanla yük daşıyıb, çörək pulu qazanır, əvəzində verilən qəpik-quruşlara sevinclə baxaraq ailəsinə çörək alıb aparardı. Bir gün əkinçiliklə məşğul olmaq üçün yığdığı pulla bir parça torpaq alıb şumlayır. Ordan neft fontan vurur. Beləliklə, Ağa Musa 1890-92-ci illərdə artıq ən varlı adam olur, milyonçu adını alır. Zaman onun xırda-cılız bədəninə qüvvət verir, torpaq ona təşəkkürünü bildirir. Atası ona "oğul bacardığın qədər bina tikdirsən bir o qədər ömrün uzun olar"-deyə nəsihət verir. Bunu yadda saxlayan milyonçu öz vəsiyyətində deyirdi: "heyf ki, 98 bina tikdirdim, 100-ə çatmadım".

Bəli, bu gün adı həmişə qəlblərdə ilk neft maqnatı, xeyriyyəçi, milyonçu kimi gözəl ifadələrdə, xatirələrdə qalan Bakımızın ən möhtəşəm binalarının təməlini qoyan bir insan Ağa Musa Nağıyev haqqında, danışacağıq.

Təqvimin bu gününə gözəl, yaddaqalan xeyriyyəçi işləri ilə düşən Musa Nağıyevın bu il ildönümüdür. Bu münasibətlə respublikamızın bir çox yerində yubileylə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən F.Köçərli adına Respublika Uşaq Kitabxansında xeyriyyəçi Ağa Musa Nağıyev haqqında anım gecəsi, oxucularla görüş, haqqında yazılmış kitab

və dövrü materialların sərgi və müzakirəsinin keçirilməsi də nəzərdə tutulmuşdur.

İlk əvvəl kitabxanada xeyriyyəçi Ağa Musa Nağıyev haqqında təşkil olunan kitab sərgisi ilə sizləri tanış etmək istərdik. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər: Məsələn; "Keçmişdən gələn səslər, "Xeyriyyəçi Ağa Musa Nağıyev", "Xalq üçün ömrünü şam kimi əridən...", "Tikdim ki, izim qala" və s. Təşkil olunan sərginin nümunəsini sizlər üçün veririk. Sərgi kitabxananım oxu zalında "Neft milyonçusu, tacir və mesanat-xeyriyyəçi Ağa Musa Nağıyev" adı altında təşkil olunur.

1.Başlıq: "Neft milyonçusu, tacir və mesanat-xeyriyyəçi Ağa Musa Nağıyev"
2. Kitabların nümayişi.
3.Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
4.Görkəmli insanların Ağa Musa Nağıyev haqqında söylədikləri sitatlar.
5. Foto sərgi.

## Foto sərgi






ЦЕНТРАЛЬНАЯ
ФОТОГРАФІЯ
БАКУ


















Musa Nağıyevin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Tədbiri təşkil edən kitabxanaçı bir çox qonaqlarla yanaşı milyonçu Musa Nağıyevin nəvələrini, qohumlarını da tədbirə dəvət edir.Tədbiri açıq elan edən kitabxanaçı Ağa Musa Nağıyev haqqında geniş məlumat verdikdən sonra sözü Nağıyevin nəvəsi Dilarə xanıma verir.

"Bildiyiniz kimi, paytaxtımızın estetik quruluşunun formalaşmasında müstəsna xidmətləri olan Musa Nağıyev xeyriyyə işlərinə də çox pul xərcləyib. Buna görə də hər zaman babam ilə qürur duyuram. Mən bu gün Ağamusa Nağıyev kimi kişinin nəvəsi kimi tanınmışam. Yazıçı kimi onun adını təxəllüs götürmüşəm. Mən fəxr edirəm ki, mənim Ağamusa Nağıyev kimi babam, Fərəc Nağıyev kimi atam olub. Artıq 30 ildən çoxdur ki, bu yoldayam. Onun tədqiqatçısıyam, silsilə kitablar yazmışam. Kitablarımın sayı 9-a çatır. Hər yerdə onun fəaliyyətindən, sahibkarlığından və xeyriyyəçiliyindən söz açmışam."







Elə insanlar olur ki, etdikləri xeyirxah işlərə və yaxşılıqlara görə ölməzliyə vəsiqə alırlar. Ağa Musa Nağıyev də belələrindəndir.

O millətinin naminə öz xalqının inkişafı uğrunda varlığından keçən insan olub. Bəli, elə babama olan hörmət, sayğı, sevgi xatirinə kitab yazmağı qarşıma məqsəd qoydum. Onun haqqında kitab yazacağımı qət edəndə-15 il əvvəl ətrafımda olanlarla maraqlanırdım, hər bir fikrin ardınca düşüb getdim. Haqqında deyilən hər bir kəlmə mənə hava-su kimi lazım idi, əldə etdiyim faktlar, tədqiqatlar nəticəsində də belə kitablarım ərsəyə gəlib, çap olunub.Təqdim edəcəyim bu kitabda Ağa Musa Nağıyevin həyatından, bu günümüzə çatan yadigarlarından-binaların tarixindən söhbət açılır. Bir gün uşaqlıq dostum, şairə Nurəngiz Günə kitablarımdan birini təqdim edərkən, belə bir imza atdım:

"Çox sevdiyim, çox hörmət bəslədiyim insan, qəlbin şairi, yaradıcılığı ilə çoxlarını lərzəyə gətirən "Nağıyevlərin gülümsünən...çırpıntıları"nı özününkü kimi qəbul edən qohumum, yaxınım, bacım Nurəngiz Gün xanıma Ağa Musanın nəvəsi Hacı Dilarə xanımdan".

Kitabı yazmağa başlarkən can bir, qəlb bir olan yazıçı-şairə Nurəngiz xanıma öz sözünü deməyi xahiş etdim.

Bir qədər gözlədim, gördüm bir xəbər yoxdur, zəng edib, sordum.

Nurəngiz xanımın qəmli, kədərli səsi məni qorxutdu:

"Dilarəm mənim, cəfakeşim mənim, babasının yolunda yorğun olan bacım mənim, yazacağam, bir az gözlə. Çox çətindir keçmişləri-çətin günləri yad etmək. Axı, biz hər ikimiz "O, özü böyük xanədandır"-demiş olan babam Mirzə Ələkbər Əfəndi və baban Ağa Musanın sovet dövrünün kommunist ideoligiyasının qurbanları olmalarını ağrısız, acısız yada sala bilmirik...".

Yazdı!

Məqaləni kitab ərsəyə gələnə qədər bir neçə dəfə oxudum. Nurəngiz xanım məni uşaqlıq illərimə qaytardı.

Özümü bir anlığa on iki yaşında gördüm, Nurəngizin iri-nəlbəki gözləri canlandı qarşımda.

"Atam Fərəci xatırlatdı (axı, bizim atalarımız dost olub). Yumoru çox sevən insandır. Realist olmasından, həyat keşməkeşlərinə açıq gözlə baxdığından yazdı. Atamın mötəbər bir kişinin oğlu olduğunu açıqladı. Komedik rolların ən yaxşı ifaçısı olduğunu da qeyd etdi;

Komediya! Bunun arxasında o, hönkürmüşdü. Niyə Fərəc əmi belə etmişdi? O, atası Ağa Musanı düşünərkən, keçdiyi həyat tərzini yada salarkən, söylədiyi yuvasız kəlmələr-özü dediyi kimi hər zaman qulaqlarının sakini idi".

"Hə, Dilarəm, (o məni həmişə Diloş deyə çağırır), möhtəşəm babası uğrundakı həlak!

Sən öz çırpıntılarında ol. Axı, sən də dərin kədərlənməyi bacarırsan. Sən də Fərəc kimi deyib-gülən, gülərkən düşünməyi bacarırsan.

Biz balaca qızlar olarkən gizlinpaç oyunu oynayarkən qorxa-qorxa dediyin:

-Mənim bobam  (Bakı əhli babanı belə çağırır), böyük adam olub, e!

Neft milyonçusu, neft kralı, birinci dərəcəli tacir, neçə-neçə fəxri orden və medalların sahibi, mesenat xeyriyyəçi, 98 bina, 4 xəstəxana, 4 möhtəşəm otel tikdirən Ağa Musa Nağıyev –Bakının 11 milyonçularından fərqlənib, birincisi olub.

Təqib və insan! Və ədalətsizlik! Bəli və lakin...

Lakin bütün sirlər nə vaxtsa aşkar olur. Bu qəbildən ruha basqı, bu işin usta yapıcıları, şəxsiyyəti əzmək  yönümündə "Qıvrılan Satqınlar"da təbii ki, zaman axarında lazımınca faş olur.

Gələcəyin mükəmməl dərsi üçün bunu da bilmək önəmlidir.

Amma Ağa Musa! Ağayana Ağa Musa...Hanı bizim Ağayana tərpənişimiz?

Dilarəm mənim! Vuruşlarına, zinharına bələd olduğum çiçək. Babasının yorğun yavrusu! Sən gülümsünən çırpıntılarınla salamat qal, başını yasdığa atanda, başqa heç nə, elə bir başa Ağa kişini-Ağa Musa ağanın özünü gör! Gör ki,...

Tikdirdiyi binaların üzəriylə gəzən Müztərib kölgə ağ dünyasında...Necə bəxtiyar gülümsünür...Eynən Fərəc təbəssümü kimi, sənin kimi, qalib və ixtiyarsız" .

Bəli, tədbirin sonunda Dilarə xanım çıxışını belə tamamlayır: Babam haqqında topladığım faktları yadigar qoyub getmək istəyirəm ki, onun illərdir narahat ruhu aram tapsın.

On bir milyonçunun birincisi, on bir milyonçudan ən varlısı Ağa Musa Nağıyev...Əslində Ağa Musa Nağıyev şəxsiyyətinin başqalarından fərqli cəhəti ondan ibarətdir ki, o, köhnə Bakının memarlıq simasına hamıdan çox töhfə verib. Buna görə həmişə Böyük Azərbaycanlı Ağa Musa Hacı oğlu Nağıyevin vəsaiti ilə tikilmiş həmin binalara tamaşa edərkən bu adamın adını minnətdarlıqla xatırlamalıyıq və xatırlayırıq. Ağa Musa Nağıyevin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də oxucularla söhbətdir."Keçmişdən gələn səslər" adlı söhbət  Ağa

Musa Nağıyev haqqında hazırlanmış slayda və onun tikdirdiyi binaların vidoroliki ilə başlayır. Tədbirdə iştirak edən qonaqlar slaydla tanışlıqdan sonra Ağa Musa Nağıyevin Bakıdakı möhtəçəm tikililəri haqqında məruzəyə qulaq asırlar.

https://www.youtube.com/watch?v=GCH83ZNG2jo

https://www.youtube.com/watch?v=DRqBMye9lag

https://www.youtube.com/watch?v=SZX9o_fOuJw

https://www.youtube.com/watch?v=RLJ6J2aLuk8

https://www.youtube.com/watch?v=P2AYYO5i-Xo

https://www.youtube.com/watch?v=RkhAnB0ljas

https://www.youtube.com/watch?v=nggcuM8Xqec

Kitabxanaçı tədbiri açıq elan edib, İsmaliyyə binasının tarixi haqqında məlumat verir: Danışan divarlar və hər dəfə susmağa məcbur qalan tarix... Yarandığı dövrdən neçə-neçə əhəmiyyətli hadisələrin şahidi olan "İsmailiyyə" binası. Bu gün nə qədər araşdırılsa belə, əsl həqiqəti özülündə gizli saxlayan bu bina bütün dövrlərin ən çox diqqət çəkən memarlıq abidələrindən biri olub. Təsadüfi deyil ki, Azərbaycanın müstəqillik ideyaları da ilk dəfə məhz bu binada səslənib. "İsmailiyyə"nin ölkəmiz üçün əhəmiyyətini ifadə etməyə, bəlkə də, bu tarixi fakt kifayət edir. Keçmiş Nikolayevskaya küçəsi – indiki İstiqlaliyyət küçəsini bəzəyən "İsmailiyyə" Bakı milyonçusu Ağa Musa Nağıyev tərəfindən, oğlu İsmayılın şərəfinə inşa etdirilib. Binanın memarlıq layihəsinin müəllifi mülki memar İ. K. Ploşkodur. Polyak əsilli İosif Ploşko 1895-ci ildə Peterburqda Mülki Mühəndislər İnstitutunu bitirib. O, iki il Kiyevdə işlədikdən sonra Bakıya dəvət olunur. 1925-ci ilə qədər Bakıda yaşayıb. Bu gün də şəhərə yaraşıq verən bir çox memarlıq abidələrinin müəllifidir.

Saray ilkin dövrdə Müsəlman Xeyriyyə Cəmiyyətinin qərargahı kimi istifadə olunsa da, hal-hazırda AMEA-nın Rəyasət Heyətinin binası kimi istifadə edilir. Amma bu günə qədər bu tarixi və ictimai əhəmiyyətini qorumağı bacaran binanın başı nələr çəkmədi…

Bu binada vaxtilə Azərbaycanın ən tanınmış insanları, görkəmli alimlər çalışıb. 1924-cü ildə burada Əbdürrəhim bəy Haqverdiyevin sədrliyi ilə "Azərbaycanı tədqiq və təbliğ" cəmiyyəti yerləşib. Sonralar bu cəmiyyət elmi-tədqiqat institutuna, 1932-ci ildən isə SSRİ EA-nın Zaqafqaziya filialına çevrilib. 1945-ci ildən isə Elmlər Akademiyası kimi fəaliyyət göstərib.

Böyük kimyaçı alim Yusif Məmmədəliyev də bu binada işləyib. Akademik Mirəsədulla Mirqasımov, şair Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti kimi bu binada çalışıb. Bir sözlə, uzun illər boyu Azərbaycanda elmin inkişaf istiqamətləri bu binada müəyyənləşdirilib.

Binanın iclas salonunda tez-tez elmi konfranslar, ədəbi disputlar keçirilib. Vladimir Mayakovski, Maksim Qorki, Nazim Hikmət kimi ədiblər Azərbaycan oxucuları ilə bu binanın iclas salonunda görüşüblər. Bu bina bütün dövrlərdə elm və maarif mərkəzi olub. Müxtəlif illərdə "Maarif evi", "Maarif sarayı", "Türk mədəniyyəti sarayı" adlanıb.

Bakıda ilk memarlıq abidəsi olan "İsmailiyyə" binasının, əslində, yerində Cümə məscidini tikilməsi nəzərdə tutulmuşdu, amma bu təklif Çar Rusiyası hakimiyyəti nümayəndələri tərəfindən qadağan edilir. Səbəb isə qonşu küçədə dəbdəbəli Aleksandr Nevski kafedralının tikilməsi idi.

Bakı milyonçuları Novruz bayramı münasibəti ilə təşkil olunmuş ziyafət məclislərinin birində Musa Nağıyevə təklif edirlər ki, oğlunun xatirəsini əbədiləşdirmək üçün Müsəlman Xeyriyyə Cəmiyyətinə bina tikdirsin. Məlumat üçün qeyd edək ki, Qurban Səidin "Əli və Nino" romanında "İsmailiyyə"

sarayını "İslam Xeyriyyə Cəmiyyətinin binası" kimi təqdim edilir.

Binanın tarixini, memarlıq üslubu belədir: "Nağıyevin oğlu vərəm xəstəliyinə tutulanda təxminən 14 yaşı olardı. O vaxt həkimlər məsləhət gördülər ki, onun müalicəsi ancaq Sankt Peterburqda baş tuta bilər. O vaxt Nağıyev buna çox da əhəmiyyət vermədi, amma zamanla xəstəlik daha da irəliləyirdi. Və növbəti ildə müalicənin Avropada aparılmasını məsləhət görürlər. Musa Nağıyev yenə də buna əhəmiyyət vermir. Növbəti ildə isə artıq heç bir tibb ocağında xəstəliyə çarə tapılmır. Artıq gec idi. İsmayıl dünyasını dəyişir. Musa Nağıyev milyonçuların, xüsusən də Hacı Zeynalabdin Tağıyevin təklifi ilə uşağın xatirəsinə nəsə yaratmağı qərara alır. İsmayılın adını daşıyan həmin bina müsəlmanların xeyir-şər binası olur.

Bu şəhərdə ən çox bina tikdirən milyonçu Nağıyev olub. O, hər qəpiyinin qədrini bilirdi. Nağıyev maddi baxımdan çox dəqiq adam idi. Kimsəyə də çox da güvənmirdi deyə, "İsmailiyyə"nin tikilişi üçün dəqiq məbləğ tələb edir. Dostları ilk olaraq Nağıyevə bina üçün böyük məbləğ demirlər. Xüsusilə də H.Z.Tağıyev memara tapşırır ki, Nağıyevə binanın dəyərinin yarısından da az məbləğ desin. "O dəyərə bina ərsəyə gəlməz" – deyə memar razılaşmır. Amma Tağıyev deyir ki, çatışmayan nəsə olsa, o da əlavə kömək edəcək. Müəyyən qədər maddiyyatı Tağıyev öz üzərinə götürür. Binanın tikintisinə başlanılır, təbii ki, yarısında pul qurtarır. Çatışmayan məbləğin müəyyən qədərini Hacı Zeynalabdin ödəyir. Əslində, həmin məbləğ də kifayət etməyəcəkdi. İki mərtəbə tamamlananda bina yarım qalır. Nağıyevə deyirlər ki, tamamlanmasa, yağış-qar binada çəkilən zəhməti məhv edəcək. Nəhayət ki, tamamlanma işləri Nağıyevin pulu ilə başa çatır. O binada olsanız, görərsiniz ki, iki mərtəbədən sonra binanın hündürlüyü, eləcə də, otaqlar da balacalaşır. Binada sizi qarşılayan daş pilləkən əvvəl taxtadan ibarət olub. 1918-ci ildə bolşeviklərlə, ermənilər gələndə bina yandırıldı. Sovet vaxtında yenidən bərpa etdilər. Görünüşündə

də dəyişikliklər edildi. Binada Avropa və İtaliya memarlığından daha çox üstünlük verilsə də, yerli memarlıq üslubuna da yer verilmişdi”.

Bəli, memar Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının layihəsini qısa vaxtda hazırlayır və 1908-ci ilin dekabrında binanın özülü qoyulur. O vaxtkı “Kaspi” qəzeti yazırdı: “Dekabrın 21-də, bazar günü Nikolayevsk küçəsində Müsəlman Xeyriyyə Cəmiyyətinin yeni binasının – mərhum İsmayıl Nağıyevin adına olan “İsmailiyyə” binasının təməli qoyulmuşdur. Tədbirdə cəmiyyətin sədri Hacı Zeynalabdin Tağıyev, onun həmkarı, binanın tikintisini maliyyələşdirən Musa Nağıyev, idarə heyətinin üzvləri və müsəlman ziyalıları iştirak etmişlər. Bünövrə daşının qoyulması zamanı Quberniya qazısı axund Mirməmməd Kərim Hacı Mircəfərzadə xeyir-dua vermişdir”.

M.Ə.Rəsulzadə sonralar Türkiyədə nəşr etdirdiyi “Azərbaycan Cümhuriyyəti” kitabında bu bina haqqında yazırdı: “Bəlkə də, islam aləmində böylə bir məqsədlə yapılmış binaların əzəməti etibarilə birincisidir”.

1912-ci ildə nəşr olunan “Bakinski sputnik” adlı məlumat kitabında yeni binanın layihəsi çap olunmuşdu. Orda məlumat verilirdi ki, bina birinci dərəcəli Bakı taciri Musa Nağıyevin vəsaiti hesabına, vəfat edən oğlu İsmayılın xatirəsinə ucaldılır. Layihə Venesiyadakı “Dojlar sarayı” üslubunda hazırlanmışdı.

Binanın fasadı Venesiya qotikası üzrə tərtib olunsa da, interyerin üslub proqramı Avropa klassikasına daha yaxındır və bu ikinci mərtəbənin nəfis memarlıq həllində zalın üçölçülü ictimai foyesini əhatə edən biçimli korinf sütunlarında qabarıq şəkildə özünü göstərir. Birinci mərtəbədə tağların arasında akant yarpaqlı, heraldik emblemli və taclı çələng formasında relyef formasında təsvir olunmuş iri dairəvi dekorativ motivlər yerləşib. Ağa Musa Nağıyev əsilzadə ailəsindən olmasa da, sahib olduğu milyonlar ona bu cür üslub elementlərini tələb

etməyə imkan vermişdi. İkinci mərtəbəyə keçid üfüqi hissələrin geniş zolağı ilə müşayiət olunur. Bu, fasadın kompozisiya quruluşunda yeni bir səhifə açmağa imkan yaradır. Burada "Contarini delle Figure" sarayından bir hissə öz əksini tapmışdır.

Bina hazır olduqdan sonra birinci olaraq ora xeyriyyə cəmiyyətinin idarəsi köçür. Sonra Bakıda mövcud olan bütün maarif cəmiyyətlərinə orada yer verilir. Lakin bir il sonra Birinci Dünya müharibəsinin başlanması bu binanın təyinatına və fəaliyyətinə təsirsiz qalmır. "İsmailiyyə" binası xəstəxanaya çevrilir…

Sonralar repressiya qurbanı olmuş yazıçı Seyid Hüseyn 1919-cu ildə yazırdı: "Böyük müharibə başlandı… Özünün hüsn və lətafəti ilə Bakının birinci dərəcəli binalarından olan İsmailiyyəni əsgəri bir xəstəxana halına salmağa qərar verdilər. ...Qars və Ərdəhan çöllərində bir çox sahibsiz qalmış çocuqları İsmailliyyə binası müşfiq bir ana kimi ağuşi-şəfqətində bəslədi. Bütün müavinətə möhtac olanların nəzəri İsmailiyyədə idi. Hər kəs üzünü o tərəfə tutsa idi, naümid qayıtmazdı..."

"Kafkazskiy teleqraf" qəzetinin 1915-ci il fevral tarixli nömrələrində müharibədən zərər çəkən müsəlmanlara yardımla bağlı bir-birinin ardınca elanlar verilib.

Hər zaman özgədəki müsbət cəhətləri gözü götürməyən ermənilər bu dəfə də Mart soyqırımı ilə ölkəmizə hərtərəfli ziyan vurmağı bacardı. Və bu ziyan "İsmailiyyə"dən də yan keçmir. Bəlkə də, əsas hədəf idi "İsmailiyyə".

Sarayda törədilən yanğın zamanı binaya dəyən zərərlə yanaşı, burada fəaliyyət göstərən qurumlar, o cümlədən, sarayın arxivi yanaraq məhv olub. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra dağılmış "İsmailiyyə" sarayının uçma təhlükəsi olmasına görə sökülməsinə qərar verilir. Lakin yerli əhali bina qarşısına toplaşaraq, onun sökülməsinə imkan vermir və yalnız bundan sonra sarayın bərpasına başlanılır. Binada bərpa işlərini memar Vartan Sarkisov həyata keçirib. Bərpa

zamanı sarayın ümumi plan layihəsi olduğu kimi saxlansa da, fasadında bəzi dəyişiklərə yer verilib, vaxtilə Quran ayələri və hədislərin yer aldığı medalyonlarda beşguşəli qızılı ulduzlar yerləşdirilib.

Ermənilər bu binanı dağıdarkən o vaxtkı Metropol Mehmanxanası, indiki Nizami adına Ədəbiyyat Muzeyinin damından binanı gülləbaran edirlər. Məqsəd şah əsər hesab olunan binanı məhv edib, zirzəmidə olan ziyalıların arxivlərini ələ keçirmək idi. Ən əsası isə çəkisi 6 kiloqram olan binanın üzərindəki "İsmailliyyə" sözünü götürmək istəyirdilər. Çünki həmin yazı qızıldan idi. Arxivi ələ keçirə bilməsələr də, yandırmaqla məhv etməyi bacarırlar.

Binanın zirzəmisində görkəmli ziyalıların, klassiklərin arxivi olub. Ermənilər həmin arxivi ələ keçirmək istəyiblər. Ona görə də 1918-ci il 31 martda bina yandırılıb. İsmayılın şərəfinə sarayın foyesində ucaldılan möhtəşəm heykəl də məhv edilib. Ermənilər təkcə binanı yandırmır, həm də binanın üzərində qızılı hərflərlə yazılmış "İsmailiyyə" sözünü qoparır, sarayı talan edirlər. Nə qədər qəribə olsa da, hətta bir arada bu binaya Vladimir Leninin adı verilib.

"İsmailiyyə"nin yandırılması, dağıdılması, təbii ki, hamıdan çox onun əsl sahibini – Musa Nağıyevi "yandırmışdı". Deyilənə görə, milyonçunun bu hadisələrdən bir il sonra vəfat etməsinin əsas səbəblərindən biri də "İsmailiyyə" dərdinə dözə bilməməsi olub... Milyonçunun atasının vəsiyyəti olub ki, "100 bina tik , bir o qədər də ömrün uzanar". Elə bu səbəbdən də o, 100 bina və 100 il ömür sürməyi qarşısına məqsəd qoyur. Amma taleyin oyunu ona 70 yaşdan çox yaşamağa imkan vermir. Ölüm zamanı dilində təəssüf qalır: "Heyf ki, 98 bina tikdirməyi bacardım" sözləri ilə dünyadan köçür".

El arasında belə bir deyim var: "El üçün ağlayanın gözü kor olar". Milyonçu olmaqla deyildi, Bakıda 98 memarlıq binasının inşasında imzası olan bir milyonçu öz oğlunu qoruya bilmir. Maraqlısı budur ki, "İsmailiyyə" sarayının aqibəti elə

Nağıyevin oğlunun aqibətinə bənzədi. Amma əminliklə deyə bilərik ki, bina bu gün həm tarix, həm ictimai, həm də memarlıq ənənələrini qoruyub saxlamağı bacarır.

Xeyriyyəçi Musa Nağıyevin yubileyi münasibətilə təşkil olunan tədbirlərdən biri də ədəbi-bədii gecədir. Kitabxanaçı bu tədbirə iki ay qabaqcadan hazırlaşır. İlk əvvəl tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə xeyriyyəçi Musa Nağıyevin həyatı haqqında səhnələşdirimiş səhnəcik göstərilir. Təşkil olunan ədəbi-bədii gecəyə qonaqlarla yanaşı milyonçunun nəvələri, nəticələri şair və yazıçılar, ədəbiyyat müəllimləri, oxucular dəvət olunur. “Tikdim ki, izim qala” adlı ədəbi-bədii gecənin ssenarisini sizlər üçün təqdim edirik.

Səhnədən Ağa Musa Nağıyevin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** Ötən əsrin əvvəllərində varidatına görə məşhurlaşan 11 Bakı milyonçusu arasında birinci yeri tutan Ağa Musa Nağıyev sovet hakimiyyəti illərində “istismarçı kapitalist” damğası vurulmuşdu. Hətta bəzi araşdırmaçılar bu kapitalistlər haqqında yazanda da nədənsə Ağa Musanın ünvanına “xəsis” deməkdən çəkinməmişdilər. Halbuki onun gördüyü xeyirxah işləri, tikdirdiyi binaları, etdiyi yaxşılıqları və digər qeyri-adi savab əməlləri saf-çürük etdikcə başqa cür düşünürsən. Xalqına, millətinə nə dərəcədə xidmət etmək mümkünsə, hamısını bacarıb. Bəlkə də taleyin qəzavü-qədərinə düçar olmasaydı, Ağa Musa Nağıyev daha nələr yaradacaqdı.

Ağa Musa Nağıyev böyük ürəyə sahib və nəcib insan idi. Belə bir ifadə var ki, halal surətdə varidat qazanmaq bacarıq,

onu qoruyub saxlamaq müdriklik, düzgün işlətmək istedaddır. Musa Nağıyev də bu məziyyətin üçü də olub.

Onun haqqında olan xatirələrdən, arxiv materiallarından öyrənirik ki, Musa Nağıyev "simic" yox, sadəcə, israfçı deyilmiş. Pulunu hara və nəyə xərcləməyi dürüst hesablayırmış. Oxucular səhnəyə daxil olur: Milyonçu Ağa Mysa Nağıyevin ölüm gününə həsr olunmuş "Tale yükü" adlı şeiri söyləyirlər. Qeyd edək ki, şeirin müəllifi Biləcəri sakini Minayə Şirvanlıdır.

**Gələcək nəsillər tanısın deyə,**
**Yazdım misraları mən Nağıyevə...**
**Küləkli, günəşli Bakı şəhəri,**
**Mavi Xəzərimiz, bizim fəxrimiz.**
**Abşeron bağları boldur bəhəri,**
**Şəfəqlə açılır, hər gün səhəri.**
**Biləcəri kəndində, yoxsul bir evdə**
**Bir oğlan uşağı gəldi dünyaya.**
**Ananın sevinci bir ümman boyda,**
**Atanın parladı fərəh gözündə.**
**Mələyə bənzədi uşağın özü,**
**Nurlu bir çıraqdı siması, üzü**
**Odur ki, ad qoyma mərasimində,**
**Çətinlik çəkdilər bir qədər, düzü.**
**Kəndin ağsaqqalı, ahılı vardı,**
**Körpə qulağına o pıçıldadı,**
**Musa Peyğəmbər adını qoyuram sənə**
**Heç vaxt naxələflik etmə Vətənə.**
**Beləcə tez keçdi aylar, fəsillər,**
**Samançı Nağının oğlu böyüdü,**
**Görüb evlərində ağırdı günlər,**
**Şələçi olmağa, o verdi qərar.**
**Min bir zəhmət dolu, keşməkeş yolu,**
**Keçdi o çiynində batman yük yolu,**

**Ailəyə bir qəpik quruşdan demək,**
**Öz alın təriylə edirdi kömək.**
**Yorulmaq bilmədən əmək sərf etdi,**
**Xeyli pul topladı, bunlar zəhmətdi,**
**Balaxanı deyilən neft sayəsindən,**
**Özünə bir kiçik sahə düzəltdi.**
**Gecəli-gündüzlü o fəhlələrlə,**
**Özü çəkilmədən quyu qazırdı,**
**Allah da başının üstündə durdu,**
**Kiçik sahədə neft fontan vurdu.**
**Nəhayət bəxt-tale üzünə güldü,**
**Ramana, Sabunçu, Suraxanıda**
**Naftalan körfəzi, Bibiheybətdə,**
**Qara qızıl deyib, mədənlər saldı.**
**Nobel qardaşları geridə qaldı,**
**Bu güc, əzəmətli haradan aldı,**
**Tikdi xəstənana və Mehmanxana,**
**Xeyirxah əməli, göylərə ucaldı.**
**"Cəmiyyəti xeyriyyə üçün,**
**Tikdirdi o "İsmailiyyə"**
**Bu gün alinlər ocağı,**
**İstiqlaliyyət...ünvanı,**
**Tikdirdi zavodlar Qara şəhərdə,**
**Firma da yaratdı neftçıxarmada,**
**Neçə-neçə gəmi sahibi oldu,**
**Yüzədək imarət, bina ucaltdı.**
**Cavan balasına tapmadı arə,**
**İtirdi İsmayılı-can parəsini,**
**Qopardı bu əcəl tez yarasını,**
**Pozmaq olarmı heç alın yazısını...**

II Aparıcı: Əsl şəxsiyyətlər vaxtdan da, zamandan da ucada dayanırlar. Ağa Musa Nağıyev də belə şəxsiyyətlərdəndir. Onun millət qarşısında gördüyü xeyirxah işlər hər bir kəsdə qürur hissi oyadır.

Təbiət etibarilə Musa Nağıyev dəqiq və hər şeyi ölçüb-biçən şəxs olub. İllərlə hər çətinliyə sinə gərən, yoxsulluqla yaşayan Musanın qazdığı quyudan neft fontan vurur və az müddət ərzində fəhlə Musa Nağıyev iri neft maqnatlarından birinə çevrilir. Neftdən əldə etdiyi gəlir çoxaldıqca, Ağa Musa Bakı kəndlərindəki yataqları da satın alır və yeni quyular qazdırır. İmkanları artdıqca o, "Qara şəhər"də neft emalı zavodu tikdirir, Xəzər dənizində ilk bərəsi görünməyə başlayır. Neft milyonçusu, "neftin kralı" (Çar II Nikolay onu belə adlandırıb) ikinci və birinci dərəcəli tacir mesenat-xeyriyyəçi titullarının daşıyıcısı Ağa Musa Nağıyev həm də III dərəcəli Müqəddəs Stanislav ordeni və "Zolataya şeynaya na Andreyevskoy lente" medalına layiq görülür.

Ağa Musa Nağıyev 1879-1880-ci illərdə "Qara şəhər"də kerosin istehsal edən zavod tikdirir.

Fəhlələrinə öz hesabına toy edən M.Nağıyev fərqlənən işçilərinin təhsil haqqını ödəməklə gənclərin savadlanmasına çalışıb. Ağa Musa Nağıyev yaddaşlarda daha çox tikdirdiyi möhtəşəm binalarla qalıb. Bakının gözəllik tacı-"İsmailiyyə" (AMEA) binası, həyatımızın ilkin özüllərini qoyduğumuz "Səadət sarayı", ictimai, mədəni və elm ocaqlarını özündə təcəssüm etdirən yüzlərlə bu tip binalarımız bizə məhz milli burjuaziya nümayəndələrindən-A.M.Nağıyevdən, H.Z.Tağıyevdən, M.Muxtarovdan yadigar qalıb.

Ağa Musanın "Realnı məktəb"i tikdirməsi və hamiliyə götürməsi ilə xalqın maariflənməsində böyük rolu olmuşdur. Atalar gözəl deyib: "Tikmədim özüm qalam, tikdim ki, izim qala".

Bəli, nə yaxşı ki, onun xeyirxah əməllərini davam etdirən Dilarə və Solmaz kimi varisləri var.

Öz səyi nəticəticəsində arxiv yaradan Dilarə Nağıyeva uzun illərdir ki, kölgədə qalmış, “kapitalist” damğası vurulmuş unutdurulmağa çalışılmış neft milyonçusu A.M.Nağıyevin taleyinə işıq saçır. A.M.Nağıyevin adını vəfatından 80 il keçdikdən sonra yaddaşlara qaytarıb, vətənində az qala qərib olan məzarını abadlaşdırıb.

Həmçinin, D.Nağıyeva xatirələr və faktlar əsasında “Xalq üçün ömrünü şam kimi əridən...” kitabını da ərsəyə gətirmişdir.

Ağa Musa Nağıyev 1919-cu ilin mart ayında vəfat etmişdir.

**F.Köçərli adına RUK-nın Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı:**

**Dövrü mətbuatda**

**Ağa Musa Nağıyeva D.** İşığın qonağı: Dilarə Ağa Musa Nağıyeva : müsahibə // söhbətləşdi: Şəfəq xanım // İşıq. - 2021. - № 3(107). - S. 48-52.

**Bəhramov C.** Azərbaycan milli kapitalının görkəmli nümayəndələri // İki sahil. - 2019. - 13 mart. - № 49. - S. 13. ; 16 mart. - № 51. - S. 21. ; 19 mart. - № 52. - S. 21. ; 28 mart. - № 54. - S. 13.

**Əhmədalılar T.** Milli milyonçularımızdan - Ağamusa Nağıyev // Mədəniyyət. - 2014. - 7 mart. - № 18. - S. 12.

**Əhmədov T**. Baş redaktordan : Birinci Cahan müharibəsi dövründə Azərbaycan-Türkiyə münasibətləri haqqında // Füyuzat. - 2012. - № 3. - S. 2-5.

**Elçin**. Taleyin yazısı : Ümm-ül-Baninin "Min bir gecə" nağılı // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 2-5.

**Əsgərqızı S**. Xaricdə yatan milyonlar... : Milyonçu-messenat Ağa Musa Nağıyev haqqında // El. - 2011. - № 2. - S. 22-32.

**Hidayətqızı S**. Samançı oğlu milyonçu : Mesenat Ağa Musa Nağıyev haqqında // Mədəniyyət. - 2016. - № 3. - S. 62-65.

**İlyasoğlu R.** Tikdim ki, izim qala : Bakı milyonçusu Ağa Musa Nağıyev haqqında // Respublika. - 2010. - 29 avqust. - N 187. - S. 4.

İsmailiyyə binası : XIX əsrin sonu XX əsrin əvvələrində Ağamusa **Nağıyevin** oğlu İsmayılın xatirəsinə tikilmiş bina // Planet. - 2006. - yanvar. - S. 3.

**Məmmədova N**. Geriyə baxdıqca // Yada düşdü. - 2021. - № 3(44). - S. 29-32.

**Nağıyeva D.** Ağa Musa Nağıyev : dövrü və fəaliyyəti : Unutsaq - unudularıq! // Kaspi. - 2014. - 27 fevral. - № 35. - S. 15.

**Nağıyeva D.** Unudulmaz xeyriyyəçi : Ağa Musa Nağıyev haqqında // Respublika. - 2020. - 21 avqust. - № 165. - S. 3.

Neft milyonçusu, tacir və mesenat xeyriyyəçi : Musa **Nağıyevin** vəfatından 89 il ötür // Mədəniyyət. - 2008. - 3 aprel. - S. 10.

**Nərimanoğlu M**. Dil açan daş kitabə : "Hər tamaşa isə bir ömür" kitabı milyonçu-mesenat Ağamusa Nağıyevin tarixi yadigarları

haqqında maraqlı topludur // Azərbaycan : qəzet. - 2021. - 29 oktyabr. - № 234. - S. 7.

**Qurbanov A.** Tarixi qardaşlıq köməyi // Füyuzat. - 2020. - № 3(113). - S. 38-46.

**Rəhimov A.** Ağa Musa Nağıyevin xeyriyyəçilik fəaliyyəti // Mədəni Maarif. - 2011. - № 3. - S. 50-51.

**Rüstəmli A**. Fədakarlıq rəmzi : Bakının neft kralı Ağa Musa Nağıyevin vəfatı barədə // Kaspi. - 2014. - 25 oktyabr. - № 176. - S. 14.

**Ülvi A.** Bir ömürlük nağılın elmi gerçəkliyi : "Azərbaycanda Rusiya ili" çərçivəsində // Xalq qəzeti. - 2006. - 13 sentyabr. - S. 3.

**Xəlilzadə F**. Hər dövranın öz gəlişi : Bakı milyonçusu Ağa Musa Nağıyev haqqında // Azərbaycan. - 2010. - 27 iyul. - N 160. - S. 4.

**Zümrüd**. "İsmailiyyə" və yarımçıq ömrün tarixçəsi : Ağamusa Nağıyevin oğlunun xatirəsinə tikdirdiyi binanın tarixçəsi // Mədəniyyət. - 2008. -17 iyul. - S. 9.

**Neft milyonçusu, tacir və mesenat-xeyriyyəçi Musa Nağıyev**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**